

# Xalqın iradəsinin ifadəsi

## Sözü ilə əməli bir olan Lider

*Ulu Öndərin özü qədər inandığı cənab İlham Əliyevin respublikamızın Baş naziri vəzifəsinə təyin olunmasından 22 il ötür. Ümummilli Liderin İlham Əliyevin 2003-cü ildə Baş nazir təyin olunması ilə bağlı Milli Məclisə müraciəti millət vəkilləri tərəfindən böyük razılıqla qarşılandı. Azərbaycanın işıqlı sabahına, daha güclü gələcəyinə olan inamın ifadəsi olan bu tarixi müraciət ali qanunvericilik orqanında müzakirələrdən sonra təsdiqini tapdı.*

İlham Əliyevin Baş nazir təyin olunmasına razılıq verən Milli Məclis Ümummilli Lider Heydər Əliyevin siyasi və iqtisadi kursuna, dövlət quruculuğu konsepsiyasına yeni nəfəs verəcək strateji qələbələri hədəf seçmişdi. Çünki bu təyinata qədər Heydər Əliyev məktəbinin yetirməsi Prezident İlham Əliyev Avropa Şurasında Azərbaycanın nümayəndə heyətinin rəhbəri, AŞPA-nın sədr müavini, Büro üzvü, ARDNŞ-in birinici vitse-prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti kimi mühüm postlarda xarizması ilə böyük nailiyyətlər əldə etmişdi. 2003-cü il avqustun 4-də Baş nazir təyin olunması ilə cənab İlham Əliyevin qlobal fəaliyyəti mahiyyətcə yeni keyfiyyət mərhələsinə keçdi.

"İlk növbədə onu deyə bilərəm ki, Prezident Heydər Əliyevin siyasi xəttini davam etdirəcəyəm. Bilirsiniz ki, Azərbaycan iqtisadiyyatında böyük uğurlar əldə edilib, ciddi nailiyyətlərimiz var. Azərbaycanda iqtisadi islahatlar həyata keçirilir və bunun nəticəsində ölkəmiz əsaslı şəkildə inkişaf edir. Hesab edirəm ki, qazandığımız təcrübəni və mövcud potensialı daha da genişləndirmək lazımdır. Hamımızın məqsədi bundan istifadə edib Azərbaycanı qüdrətli, güclü dövlətə çevirməkdir. Biz buna nail oluruq və mən də gələcək fəaliyyətimdə bu amala xidmət edəcəyəm. Mənim iqtisadi sahədə də kifayət qədər biliyim var. Məsələləri daha dərindən təhlil edib, konkret addımlar atacağıq". Bu fikirləri İlham Əliyev Baş nazir təyin olunduğu gün jurnalistlərin suallarını cavablandırarkən demişdi.

Cənab İlham Əliyev müəllifi Heydər Əliyev olan neft strategiyasının hazırlanmasında, dünyada uğur qazanmasında və bu sahədə müxtəlif layihələrin hazırlanmasında, çox çətin diplomatik tapşırıqların yerinə yetirilməsində fəal iştirak etmiş, ölkəyə investisiya axınında mühüm rol oynamışdır. Onun ölkədə iqtisadi islahatların həyata keçirilməsində, müstəqil Azərbaycanın xarici ölkələrlə iqtisadi və mədəni əlaqələrinin genişlənməsində, xüsusilə neft-qaz yataqlarınının birgə işlənməsinə dair dünyanın qabaqcıl neft şirkətləri ilə tarixi müqavilələrin, o cümlədən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri haqqında müqavilənin bağlanması və reallaşdırılmasında, ümumiyyətlə, Azərbaycan Respublikasının dünyaya inteqrasiyasında mühüm xidmətləri var. İlham Əliyevin böyük əməyi olan neft strategiyasının həyata keçirilməsi, beynəlxalq şirkətlərlə neft müqavilələrinin imzalanması nəticəsində 1994-2000-ci illərdə xarici şirkətlər Azərbaycana 800 milyon ABŞ dolları məbləğində bonus vermişlər. Azərbaycanın neft sektorunda 30 mindən artıq iş yeri açılmışdır.

Azərbaycanda demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunda fəal iştirak edən İlham Əliyev, həm də görkəmli ictimai siyasi xadimdir. O, ölkənin aparıcı siyasi partiyası olan Yeni Azərbaycan Partiyasının (YAP) lideridir. İlham Əliyev YAP-ın I qurultayında (1999) partiya sədrinin müavini, II qurultayında (2001) isə birinci müavini seçilmişdir. 2000-ci ilin parlament seçkilərində YAP-ın seçki kampaniyasına İlham Əliyev başçılıq etmişdir. Məhz onun rəhbərliyi ilə YAP həmin seçkilərdə parlaq qələbə çalmışdır. İlham Əliyev Milli Məclisin deputatı olduğu dövrdə geniş və çoxşaxəli fəaliyyət göstərmişdir. O, daim xalqın içində olmuş, problemləri öyrənmiş, əhalinin sosial müdafiəyə ehtiyacı olan təbəqələrinə müntəzəm qayğı göstərmişdir. Həmin dövrdə İlham Əliyevin əhalinin müxtəlif təbəqələrinin nümayəndələrinə, qaçqınlara, məcburi köçkünlərə və Qarabağ müharibəsi əlillərinə diqqəti, bölgələrdə apardığı böyük quruculuq işləri doğma xalqa göstərilən bu qayğının parlaq təzahürləridir.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr daimi komissiyasının üzvü olmuş İlham Əliyevin Avropa Şurasının Parlament Assambleyasında (AŞPA) Azərbaycan Parlamenti daimi nümayəndə heyətinin rəhbəri kimi fəaliyyəti çox yüksək olub. Onun AŞPA-dakı məqsədyönlü, qətiyyətli və cəsarətli çıxışları Azərbaycanın Avropa məkanında nüfuzunun daha da artmasına güclü təsir göstərmişdir. Məhz İlham Əliyevin yorulmaz fəaliyyəti, qətiyyətli çıxışları sayəsində erməni təcavüzkarları Avropa Şurasında ifşa olunmuş, Azərbaycanın ayrılmaz parçası olan Dağlıq Qarabağ haqqında, qondarma "Dağlıq Qarabağ problemi" barədə Qərb dünyasında obyektiv rəy formalaşmış, münaqişəyə düzgün siyasi qiymət verilmiş, həlli yolunda mühüm addımlar atılmışdır. Avropa Şurasında Ermənistanın təcavüzkar, işğalçı dövlət kimi tanınmasında, erməni terrorçuluğunun beynəlxalq terrorizmin tərkib hissəsi olmasının sübuta yetirilməsində, nəzarətdən kənarda qalan "Dağlıq Qarabağ"ın narkotiklərin ötürücü məntəqəsinə və terror yuvasına çevrilməsinin Avropa və dünya ictimaiyyətinə çatdırılmasında İlham Əliyevin böyük xidmətləri olub. Avropa Şurasındakı fəaliyyəti, AŞPA-dakı obyektiv və konstruktiv çıxışları ilə İlham Əliyev Qərb siyasətçiləri arasında böyük hörmət və nüfuz qazanmışdır. O, AŞPA-nın vitse-spikeri və Büro üzvü seçilmişdir. 2003-cü ildən sonra Baş nazir İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanla BMT arasında əlaqələr yeni mərhələyə qədəm qoydu. Azərbaycanın beynəlxalq birlikdə qazandığı nüfuza və imicə yeni çalarlar əlavə olundu. İlk dəfə Azərbaycanın Baş naziri kimi 2003-cü ilin sentyabrında BMT Baş Assambleyasının 58-ci sessiyasında çıxış edən İlham Əliyev BMT-də islahatların vaciliyini bəyan etdi. BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamənin yerinə yetirilmədiyini vurğuladı, işlək mexanizmin yaradılmasını vacib olduğunu söylədi. Həmin il oktyabrın 29-da BMT Baş Məclisinin sessiyasında Azərbaycan nümayəndə heyətinin təşəbbüsü ilə "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı məsələ iclasın gündəliyinə salındı.

Cənab İlham Əliyev Prezident Heydər Əliyevin gənclər siyasətinin həyata keçirilməsində misilsiz fədakarlıq göstərmişdir və bu sahədə fəaliyyətini uğurla davam etdirir. 1997-ci ildə Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin prezidenti təyin olunan İlham Əliyev az vaxtda həmin sahədə də yüksək təşkilatçılıq istedadına malik olduğunu göstərmişdir. Onun yorulmaz və gərgin əməyi sayəsində, Azərbaycan idmanı dünya şöhrəti qazanmışdır. Azərbaycan idmançılarının beynəlxalq yarışlarda qazandıqları parlaq uğurlar İlham Əliyevin başçılıq etdiyi idman hərəkatının, hər şeydən əvvəl, böyük qələbəsidir.

2003-cü il avqustun 4-də Baş nazir təyin olunması ilə İlham Əliyevin qlobal fəaliyyəti mahiyyətcə yeni keyfiyyət mərhələsinə keçdi və bu, ilk növbədə, xalqın iradəsi ilə müəyyənləşdi. Çünki İlham Əliyevin Baş nazir təyin edilməsi xalqın iradəsinin ifadəsi idi. Bu inam xalqın Heydər Əliyev siyasi kursuna sədaqətindən doğurdu. Bu təyinat ölkədəki ictimai-siyasi sabitliyin qorunması və davamlı olmasına xidmət edirdi. Azərbaycan xalqının iradəsi uzaq və yaxın xaricdə öz pozitiv nəticələrini çox gözlətmədi. ABŞ prezidenti, Türkiyənin Baş naziri, Rusiyanın prezidenti, İran hökuməti, Gürcüstan prezidenti və digər ölkələr İlham Əliyevin Baş nazir təyin olunmasını çox uğurlu seçim kimi qiymətləndirdilər və onunla rasional əməkdaşlığa hazır olduqlarını bəyan etdilər.



Azərbaycan Respublikasının Baş naziri İlham Əliyev Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə sentyabrın 8-də qardaş ölkədə işgüzar səfərdə olmuşdur. Bu, İlham Əliyevin Azərbaycanın baş naziri seçilməsindən sonra ilk rəsmi səfəri idi. Prezident Heydər Əliyevə göstərdikləri böyük diqqət və qayğıya görə Türkiyə dövlətinə və hökumətinə minnətdarlığını bildirən Baş nazir İlham Əliyev dedi: "Qeyd etmək istəyirəm ki, Türkiyənin Baş naziri cənab Tayyib Ərdoğan mən Baş nazir təyin olunan gün - avqustun 4-də ilk olaraq məni təbrik etdi və Türkiyəyə dəvət etdi. Mən də böyük məmnuniyyət hissi ilə bu dəvəti qəbul etdim və bu gün burada sizinlə birlikdəyəm. İlk səfərimi Türkiyəyə edirəm. Hesab edirəm ki, bu gün mənim həyatımda, Türkiyə-Azərbaycan əlaqələrinin gələcək inkişafında çox mühüm bir gün olacaqdır. Bu gün əziz qardaşlarımla Türkiyə və Azərbaycan arasında əlaqələri açıq və səmimi şəkildə müzakirə etdik. Biz iki ölkəni maraqlandıran problemlər ətrafında fikir mübadiləsi apardıq. Ölkələrimizin birgə həyata keçirdikləri irimiqyaslı, dünya üçün əhəmiyyətli Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum layihələrini müzakirə etdik və qərara gəldik ki, iki ölkə arasında olan səmimi münasibətlər, qardaşlıq əlaqələri bu layihələr həyata keçirildikdən sonra daha da yüksək səviyyəyə qaldırılacaq. Bu layihələr həyata keçirildikdən sonra Azərbaycan və Türkiyə daha da güclənəcək, regionda onların təsiri daha da möhkəm olacaq... "Sizi əmin etmək istəyirəm ki, Baş nazir vəzifəsində mən ölkələrimizin - Türkiyə və Azərbaycanın bundan sonra da inkişaf etməsi, gələcəkdə də gözəl münasibətlər saxlaması, bu münasibətlərin daha yüksək pilləyə qalxması üçün əlimdən gələni edəcəyəm".

Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğan vurğuladı ki, Baş nazir İlham Əliyev bizim üçün xüsusi qonaqdır. Hər şeydən əvvəl, Türkiyə və Azərbaycan respublikaları eyni millətin övladları olaraq bizim qurduğumuz iki ayrı dövlətdir. Beləliklə, biz bu gün burada bir qardaşı salamlamağın səadətini yaşayırıq. Hörmətli Prezident Heydər Əliyev geniş dünyagörüşü və uzaqgörənliyi ilə əlaqələrimizin inkişafına böyük töhfələr vermişdir. Hörmətli İlham Əliyevin də Baş nazir vəzifəsinə gəldikdən sonra ilk xarici səfərini ölkəmizə etməsi bizləri xoşbəxt etmişdir. Eyni dildə danışdığımız, ortaq tarixə malik olduğumuz və eyni mədəniyyəti paylaşdığımız Azərbaycan Türkiyənin Orta Asiyaya açılan qapısı əhəmiyyətini daşıyır. Eyni zamanda, Türkiyə də Azərbaycanın Avropa və Atlantik strukturları ilə inteqrasiyası istiqamətində bu ölkənin Qərbə açılan qapısı əhəmiyyətini daşıyır. Bu amillər iki ölkə arasındakı əlaqələrə bir-birini tamamlayan strateji bir bütövlük qazandırır.

Azərbaycan Respublikasının Baş naziri İlham Əliyevin Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə bu ölkəyə işgüzar səfəri kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılmışdır. TRT-1, TRT-2, TRT-Avrasiya dövlət və CNN-Türk, NTV, Haber-Türk, Samanyolu TV, TGRT, Kanal-8, Kanal-D, ATV, Show-TV, Kanal-7 özəl televiziya kanalları səfərə böyük əhəmiyyət verərək, Baş nazir İlham Əliyevin Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün məqbərəsini ziyarət edib əklil qoyması, Çankaya köşkündə Prezident Əhməd Necdət Sezər, Baş nazir Rəcəb Tayyib Ərdoğan, Baş nazirin müavini və xarici işlər naziri Abdullah Gül ilə səmərəli görüşləri haqqında məlumat yaymışdır. Ölkənin nüfuzlu və yüksək tirajlı "Hürriyyət", "Sabah", "Axşam", "Türkiyə", "Zaman", "Yeni Şəfəq", "Radikal", "Türkiş Deyli Nyus" qəzetlərində Baş nazir İlham Əliyevin keçirdiyi görüşlərə dair xəbərlər və fotoşəkillər dərc olunmuşdur. Azərbaycanın Baş nazirinin işgüzar səfəri Türkiyənin və Ankarada akkreditə olunan xarici informasiya agentliklərinin də diqqət mərkəzində idi. "Anadolu Agentliyi", "İhlas xəbər", "Cihan xəbər", "İTAR-TASS", "Assoşieyted press", "Röyters", "Frans press" informasiya agentlikləri xəbər bülletenlərində bu səfərə xüsusi yer ayırmışdılar. KİV-lər səfərin uğurlu və səmərəli keçdiyini, Prezident Əhməd Necdət Sezərin və Baş nazir Rəcəb Tayyib Ərdoğanın iki ölkə arasındakı dostluq və qardaşlıq əlaqələrinin inkişafına böyük əhəmiyyət verdiklərini, Türkiyənin Azərbaycana dəstəyinin davam edəcəyini vurğulayırdı. Ekspertlər və siyasi şərhçilər Baş nazir İlham Əliyevə Türkiyə rəhbərliyi tərəfindən böyük hörmət və ehtiram göstərilməsini, səfərin yüksək səviyyədə keçməsini Azərbaycan hökuməti başçısına Ankaranın dəstəyi kimi qiymətləndirirdilər.















2003-cü ilin oktyabrında xalqın böyük əksəriyyətinin səsi ilə Prezident seçilən dövlət başçısı İlham Əliyev bir çox cəhətləri ilə çoxlu sayda yerli və xarici ekspertlərin diqqətini cəlb etdi. Onun Liderlik dövrünü olduqca əhatəli təhlil etdikdə ekspertlər haqlı olaraq, Prezident İlham Əliyevi yeniliklərə həssaslıq göstərən, rasional keyfiyyətləri özündə cəmləşdirən müasir Lider kimi xarakterizə edirlər. Dövlət başçısında bu cür rasional, əlahiddə keyfiyyətlərin cəmləşməsi xarici siyasətdə və eləcə də, ölkədaxili demokratik proseslərin gedişində əsas leytmotiv təşkil edir ki, bu da beynəlxalq münasibətlər sistemində Azərbaycan üçün mühüm faktorlardan biri, bəlkə də, birincisi idi. Nəticədə Azərbaycan həm daxili siyasətdə, həm də beynəlxalq birliyə inteqrasiyada əməli nəticələrə nail oldu. Fəaliyyəti müddətində yüzlərlə təltif və mükafatlara layiq görülmüş Prezident İlham Əliyev bütün mükafatların fövqündə Azərbaycan xalqının sevgi və etibarını daha önəmli saydığını, hər zaman xalqın dəstəyinə güvəndiyini dəfələrlə vurğulamışdır.

Ulu Öndər Heydər Əliyev siyasətini bütün istiqamətlərdə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən səmərəli sosial-iqtisadi siyasət, dərin islahatlar strategiyası Azərbaycanın dayanıqlı inkişafını təmin edib və ölkəmiz hərtərəfli inkişaf yolu keçib. Elə bir sahə yoxdur ki, orada yüksək inkişaf göstəriciləri qeydə alınmasın. Bütün sahələrdə ardıcıl islahatlar həyata keçirilib və əhəmiyyətli uğurlar qazanılıb. Regionların davamlı sosial-iqtisadi inkişafı təmin edilib, Azərbaycanın beynəlxalq iqtisadi əlaqələri genişlənib, sosial məsələlər uğurla həll olunub. Bununla yanaşı, ölkənin artan imkanları hesabına insan kapitalının formalaşması, əhalinin sosial təminatının, xalqın rifahının daha da yüksəlməsinə yönəlmiş, Azərbaycan nümunəvi sosial siyasət həyata keçirən dövlətə çevrilmişdir. Azərbaycan Prezidenti İlham Əliyev vədini yerinə yetirdi və bu gün də xalqı qarşısında sözü ilə əməli bir olan Liderdir!

Bu gün müasir müstəqil Azərbaycana Heydər Əliyev yolunun layiqli davamçısı İlham Əliyev başçılıq edir. Azərbaycan xalqının iradəsini ifadə edən İlham Əliyev müstəqil Azərbaycanın Prezidenti, həm də dünya azərbaycanlılarının lideri, dünya tərəfindən qəbul olunan görkəmli və müasir dövlət xadimidir. O nəinki Azərbaycanda, bütün dünyada böyük hörmətə və nüfuza malikdir. Azərbaycan dövlətinin, cəmiyyətinin bütün sahələrində geniş inkişafa nail olmuş Prezident İlham Əliyev gələcəyə hesablanmış effektiv dövlət siyasətinin xeyir-duasını Ulu Öndərdən almışdır. Azərbaycan son 200 illik tarixinin ən möhtəşəm illərini yaşayırsa, bu cənab Prezident İlham Əliyevin müdrik siyasətçi olmasının nəticəsidir. İşğaldan azad olunmuş, ərazi bütövlüyü bərpa edilmiş Azərbaycan dövləti möhtərəm Prezidentimiz İlham Əliyevlə birgə gələcəyə inamla addımlayır!

**Mustafa KAMAL,**
**"Respublika".**